# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 496** **Bakı şəhəri, 15 dekabr 2020-ci il**

***"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 may tarixli 187 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 may tarixli 187 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 947; 2019, № 4, maddə 756, № 5, maddə 965, № 12, maddə 2060; 2020, № 4, maddə 499, № 5, maddə 653; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 noyabr tarixli 456 nömrəli Qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 3.1-ci bəndinə və 3.2.1-3.2.3-cü yarımbəndlərinə "əlvan" sözündən sonra "və qara" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti 2020.- 16 dekabr.- S.13.